# Şuşadan İrəvan xanlığı da, Göyçə gölü də aydın görünür

***Qarabağ hadisələri başlayanda birinci sinifdə oxuyurdum. Hələ mənasını anlamadığım erməni kəlməsini həmin vaxtlar çox eşidirdim. Məndən böyüklər bu kəlməni xüsusi bir vurğu ilə dediklərindən, məni maraq götürmüşdü ki, bu sözün altında nələr yatır. Erməni xislətinin nə olduğunu böyüdükcə anlamağa başladım. Oxuduğum məktəbdə və qonşu uşaqları arasında şəhid övladı deyilənlərin sayı günbəgün artırdı. Müəllimlərimiz onların atalarının Vətən uğrunda qəhrəman kimi vuruşduqlarını – şəhid olduqlarını bizə başa salmışdılar. Bu uşaqlara xüsusi bir ehtiram var idi, onları görəndə istər-istəməz kədərlənməklə yanaşı, həm də bir qürur hissi duyurduq – nə yaxşı Vətənimizin müdafiəsi uğrunda canını qurban verən igidlərimiz vardır.***







O dövrdə ordumuz zəif olduğundan, ermənilər torpaqlarımızı işğal edə-edə irəliləyirdilər. Qanlı 20 Yanvar, Xocalı hadisələri, itirilən torpaqlarımız, şəhər və kəndlərimiz uşaq yaddaşımızda dərin iz buraxdı. Ən dəhşətlisi isə 1992-ci ilin may ayının 8-də Şuşanın alınması oldu. Bu nəinki Azərbaycanda, bütün dünyada böyük əks-səda doğurdu. Hər kəs Şuşa deyirdi. Bakıda da aləm bir-birinə dəymişdi. Bir müddət keçəndən sonra eşitdik ki, o dövrdəki prezidentimiz Ayaz Mütəllibov devrildi. Sonrakı dövrlərdə də yadda qalan, ürəkaçan nələrinsə baş verdiyini xatırlamıram.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin qayıdışı xalq arasında bir canlanma, coşqu yaratdı, hər kəsin qəlbində bir ümid çırağı yandırdı. Uğurlarımız çoxalmağa, artmağa başladı. Buna baxmayaraq, hər bir azərbaycanlının qəlbinin dərinliyində bir dərd var idi – Qarabağ dərdi…

Nəhayət, bəxtimizə gün doğdu. 2020-ci ilin sentyabr ayının 27-də düşmənin təxribatına cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ayağa qalxan xalq və ordumuz düşmənin üzərinə yeridi. Ordumuzun uğurları, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti müharibənin taleyini həll etdi. Müasir hərb tarixində misli görünməyən Şuşa əməliyyatı müharibədə həlledici an oldu. Düşmən məğlub oldu. İkinci Qarabağ müharibəsi salnaməmizin ən şərəfli səhifəsi olaraq Vətən tariximizə qızıl hərflərlə yazıldı. Bu sevinci böyük xalq olaraq birlikdə yaşadıq. Azərbaycan xalqının böyük filosofu Əbu Turxanın fikrincə desək: "Vətəni sevməyin daha bir şərti – onun uğrunda savaşanların sevincini də, acısını da onlarla birlikdə yaşamaqdır". O andan dünyadakı hər bir azərbaycanlı daha da qürurlu və şərəfli bir insan oldu, özü boyda Qələbə bayrağına çevrilərək xalqımızın bu tarixi qələbəsinin inamlı carçısına çevrildi.

Prezident İlham Əliyev Şuşa azad edildiyi ilk andan bu qədim, misilsiz gözəl şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan etdi və ona daimi olaraq xüsusi diqqət və qayğı göstərir. 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış Şuşa Bəyannaməsi bu şəhərin strateji əhəmiyyətini və şöhrətini daha da artırdı.

Şuşanı görmək istəyi hamı kimi məndə də əsl sevdaya çevrildi və nəhayət, istəklərim çin oldu. Nərimanov Tibb Mərkəzinin direktoru, tibb üzrə fəlsəfə doktoru Fazil Alməmmədovun göstərdiyi etimada əsasən, 2022-ci ilin aprel ayının 3-dən 10-dək təcrübəli həkim qrupu: Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin dosenti, anestezioloq-reanimatoloq Kəmalə Namazova, Nərimanov Tibb Mərkəzinin "Yanıq" şöbəsinin həkim-cərrahı, tibb üzrə fəlsəfə doktoru Azər Həsənov ilə birlikdə Şuşa Modul tipli Xəstəxanaya ezam olunduq. Əlimizdən gələni əsirgəmədik. Əsas məqsədimiz azad Şuşamızda yaşayan vətəndaşlarımıza və orada xidmət göstərən hərbçilərimizə tibbi yardım göstərmək olsa da, daha böyük amalımız müqəddəs şəhərimiz Şuşanı görmək idi.

Şuşada imkan olduqca gəzməli yerləri də gəzdik. Şəhərə baxanda hər tərəfdə erməni vandalizminin izləri görünürdü. Erməni vandalları tarixi abidələrimizi məhv etmiş, 28 illik işğal dövründə şəhəri bacardıqları qədər viran qoymuşlar.

Möhtəşəm Şuşa qalasına baxdıqca adam qəribə hisslər keçirir. Elə bil bu qədim qala öz doğma balasını qarşılayır. Adamla pıçıltı ilə danışır və soruduğu bir şey vardır: Niyə gec gəldiniz? Şuşanın əsrarəngiz təbiəti: İsa bulağı, Cıdır düzü, Topxana meşəsi, Vaqifin məqbərəsi, Bülbülün ev-muzeyi, Yuxarı Gövhərağa Məscidi, Xan qızı Natavanın evi, cansız heykəllər, küçələr belə əl-ələ verərək elə bil gözəllik çələngi toxuyurlar.

Bülbülün ev-muzeyinə ziyarətimiz isə məni yenə kövrək notlara kökləyərək uşaqlıq illərimə apardı. Otaqlarının quruluşu belə Azərbaycanın ənənəvi evlərinə xas olan bu tarixi binanın hər daşında, hər küncündə həm sevinc, həm kədər, bir az da giley-güzar var idi sanki. Azərbaycan musiqi sənətinin inkişafı tarixində bütöv bir dövr olan Bülbülün erməni vandalizminə məruz qalmış büstünə baxanda kövrəlməmək olmur. Təmir-bərpa və yenidənqurma işlərindən sonra muzeyin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldılsa da, erməni vəhşiliyinin bariz nümunəsi kimi köhnəsi də saxlanılıb. Bülbülün ev-muzeyi əvvəllər olduğu kimi, bu gün də Azərbaycanın mədəniyyət beşiyi olan Şuşanın mədəniyyət və sənət mərkəzidir.

Xalq şairi Zəlimxan Yaqubun Qarabağa böyük sevgisi var idi. Mənə elə gəlir ki, "Təbiət Allahın şah əsəridir" deyəndə o, Şuşanı nəzərdə tutub yazmışdır. Şuşa həqiqətən də Allahın şah əsəridir. Bu şəhərə ilk baxışdan hər kəs heyran olur. Baxdıqca nə göz doyur, nə könül. Havası, suyu ilahi nemətdir, saflıq, duruluq möcüzəsidir. Bəli, Şuşa belə Şuşadır…

Əsgərlərimizin yalın əllə keçdiyi sal qayalara baxanda ilk olaraq gözlərimi dolduran qürur hissi oldu, fəxr elədim. Belə igidləri yetişdirən bir xalqın övladı olduğum üçün özümü xoşbəxt hiss edirəm. Bir qız, üç oğul anasıyam – oğullarıma danışmağa bir igidlik dastanım var.

İndi Şuşanın hər bir tərəfində genişmiqyaslı və sürətli quruculuq işləri aparılır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmişə olduğu kimi sözünün ağasıdır – Şuşa şəhəri həqiqətən də yenidən dirçəlir.

Yenə də Əbu Turxanın dahiyanə fikirləri düşüncələrimə hakim kəsilir: "Şuşa zirvəsindən baxanda Zəngəzur da görünür".

Ustad, məncə, bəsirət gözü ilə baxanda, burdan İrəvan xanlığı da, Göyçə gölü də aydın görünür…

***Sevil ORUCOVA,***
***Nərimanov Tibb Mərkəzinin Yanıq şöbəsinin həkim-pediatrı***